

# Yaxınlaşan Uzaq Şərq: etibarlı dost, strateji tərəfdaş

## Dövlət başçısı Xankəndidə III Şuşa Qlobal Media Forumunda Azərbaycan-Çin münasibətlərinin dinamik inkişaf etdiyini, daha da möhkəmləndiyini vurğulayıb

***Azərbaycan ilə Çin arasında son illərdə əməkdaşlıq səviyyəsinin yüksələn xətlə inkişaf etməsi önəmli mətləblərdən xəbər verir. Çin yaşadığımız əsrdə qlobal güc mərkəzi kimi özünün iqtisadi, demoqrafik potensialı ilə çoxqütblü dünyanın mühüm siyasi aktorudur.***

Çin müstəqil xarici siyasət kursuna malik olan milli dövlətlərin əməkdaşlıq etmək istədiyi lokomotiv ölkələrdən sayılır. Avrasiya geoməkanında, xüsusilə də Azərbaycanın mühüm təsir imkanları yaratdığı Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya bölgəsi üzrə ikitərəfli və çoxtərəfli səciyyə daşıyan qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin formalaşmasında Çin faktoru xüsusi əhəmiyyətə malikdir. Azərbaycan ilə Çin arasında son illərdə siyasi dialoq, iqtisadi tərəfdaşlıq əlaqələri genişlənməkdədir. Üst-üstə düşən maraqlar, uzlaşan mövqelər, yaxın təmaslar və xüsusilə də dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında liderlərin şəxsi münasibətləri mühüm rol oynayıb. İki ölkənin rəsmiləri arasında səfərlər intensivləşib, bütün sahələr üzrə danışıqlar və razılaşmalar dinamik xarakter alıb. Çinin Sədri Si Cinpin ikitərəfli münasibətlərin yüksək dinamika ilə inkişafında Azərbaycan Prezidentinin rolunu həmişə yüksək dəyərləndirib və cənab İlham Əliyevi Çinin böyük dostu adlandırıb. Beləliklə, dinamik və işgüzar xarakter daşıyan əlaqələr yeni mərhələdə yeni müstəviyə qədəm qoyur.

Dövlətimizin xarici siyasətində dünya ölkələri ilə əlaqələrin genişləndirilməsi mühüm yer tutur. Dünyada cərəyan edən hadisələr fonunda Azərbaycanın yürütdüyü uğurlu müstəqil siyasət respublikamıza olan marağı daha da artırır. Bu baxımdan cari ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına səfəri tarixi əhəmiyyət kəsb edir. Dünyanın ən böyük dövlətlərindən birində ölkəmizin başçısına və nümayəndə heyətinə göstərilən yüksək hörmət münasibətlərin hansı səviyyədə inkişaf etdiyinin göstəricisidir.

Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunda Çinin Sinxua agentliyinin Bakı ofisinin nümayəndəsi Zhong Zhongun "Demək olar ki, hər gün iki ölkə arasında yeni əməkdaşlığa dair xəbərlər eşidirik. Bu baxımdan sualım belədir: Azərbaycan ilə Çin arasındakı mövcud münasibətləri necə qiymətləndirirsiniz? Əməkdaşlığımızın perspektivləri nədən ibarətdir? Qarabağa Böyük Qayıdış çərçivəsində Çin şirkətləri hansı sahələrdə iştirak edə bilər" sualına cavabında Prezident İlham Əliyev Azərbaycan-Çin münasibətlərinin ən yüksək səviyyədə dinamik inkişaf etdiyini xüsusi vurğuladı ki, bu da ölkəmizin çoxvektorlu xarici siyasətinin daha bir nümayişidir.

**(davamı 2-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Son iki ildə Azərbaycan və Çin rəhbərləri tərəfindən iki mühüm sənəd imzalanıb. Bu sənədlər dövlətlərarası münasibətlərin ən yüksək formalarını əks etdirir. Çin Xalq Respublikası ilə qarşılıqlı etimada əsaslanan münasibətlərin qurulması Azərbaycanın uğurudur. Rəsmi Bakı açıq şəkildə bildirir ki, Çin Xalq Respublikasının Tayvan və digər məsələlər ilə bağlı mövqeyini dəstəkləyir. Artıq Çinin bir çox şəhərlərindən Azərbaycan ərazisindən keçməklə Qərbə konteyner qatarları göndərilir və onların sayı ildən-ilə artır. Son dövrlərdə Azərbaycan, həmçinin Çin şirkətləri ilə bərpaolunan enerji - Günəş və külək enerjisi sahəsində əməkdaşlığa başlayıb. Artıq müvafiq sazişlər imzalanıb və bu sahə də ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığa mühüm töhfə verəcək. Ticarət dövriyyəsinin artırılmasına dair böyük planlarımız var. Hazırda bu istiqamətdə böyük potensial mövcuddur. Hesab edirəm ki, yaxın zamanda bu göstəricilər dəfələrlə artacaq. Biz cənab Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü əvvəldən dəstəkləmişik və bu məqsədlə ölkəmizdə uyğun nəqliyyat-logistika infrastrukturunu hazır etmişik.



# Yaxınlaşan Uzaq Şərq: etibarlı dost, strateji tərəfdaş

## Dövlət başçısı Xankəndidə III Şuşa Qlobal Media Forumunda Azərbaycan-Çin münasibətlərinin dinamik inkişaf etdiyini, daha da möhkəmləndiyini vurğulayıb

Azərbaycan liderinin bu çıxışı ümumilikdə iki ölkə arasında əlaqələrin inkişafını, strateji tərəfdaşlığın əhəmiyyətini və gələcək perspektivlərini ətraflı şəkildə əks etdirir. Azərbaycanla Çin arasında münasibətləri irəli aparmaq və daha yüksək səviyyəli, yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq barədə razılığın əldə olunmasına da diqqət çəkib. Tərəflər müasirləşməni birgə şəkildə irəli aparmaq və daha yüksək səviyyəli, yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq üçün "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycanın "İpək Yolunun dirçəldilməsi" dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılaşıblar.

Prezident İlham Əliyev və Sədr Si Cinpin "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" imzalayıblar. Azərbaycan Prezidentinin Çinə dövlət səfəri çərçivəsində imzalanan sənəd həm əhatə dairəsinə, həm də iqtisadi, siyasi əhəmiyyətinə görə xüsusi çəkiyə malikdir. Azərbaycanla Çin arasında davam edən dostluq münasibətləri bu sənədlə daha da möhkəmlənəcək və hərtərəfli strateji tərəfdaşlıq müstəvisində yeni pilləyə qədəm qoyacaq. Bəyanata görə fövqəldövlət və dünya səhnəsində mühüm oyunçu, təsir gücünə malik olan Çin Azərbaycanla əməkdaşlığa yalnız iki ölkə arasındakı əlaqələrin möhkəmləndirilməsi kimi deyil, eyni zamanda regional və qlobal müstəvidə əməkdaşlığı gücləndirmək prizmasından yanaşır. Bu isə Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilməsi, Çin kimi qlobal güc mərkəzləri ilə siyasi və iqtisadi əlaqələrinin inkişafının xüsusi önəm daşımasının bir daha təsdiqidir. Hər iki ölkə bir-birini etibarlı və strateji tərəfdaş kimi təsdiqləyir, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdil qərar verir. Sənəddə Azərbaycanın COP29-u uğurla təşkil etməsi ayrıca qeyd olunub, iki ölkənin qlobal iqlim idarəçiliyinə böyük töhfə verməklə iqlim dəyişikliyi ilə mübarizə sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı gücləndirməyə davam edəcəkləri ifadə edilib. Çinin Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına tezliklə üzv olmasına dəstəklərinin yer aldığı bəyanatda tərəflər BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əsaslanan başlıca normaların qorunmasına səy göstərdiklərini, hegemonluğa və güc siyasətinə qarşı çıxdıqlarını, ümumbəşəri dəyərlərin - sülh, inkişaf, bərabərlik, ədalət, demokratiya və azadlığın təşviqinin lehinə çıxış etdiklərini, yeni beynəlxalq münasibətlərin və bəşəriyyətin vahid taleyi birliyinin yaradılmasına səy göstərdiklərini bəyan ediblər. Bəyanatda, habelə Azərbaycan və Çin tərəfindən qarşılıqlı olaraq ölkələrin irəli sürdükləri qlobal təşəbbüslərə dəstək vurğulanıb, o cümlədən Çin ölkəmizin Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) hüquqi statusunun artırılmasını dəstəkləyib.



Azərbaycan və Çin arasında viza rejimi aradan qaldırılıb. İki ölkə arasında "adi vətəndaş pasportları üçün qarşılıqlı viza tələblərindən azad olunma" razılaşması qüvvəyə minib. Viza rejiminin ləğvi ilə bağlı əldə olunan razılaşma iki ölkə arasında əməkdaşlığın daha da dərinləşməsinin göstəricisidir. Bu addım təkcə turizm sahəsini deyil, həm də siyasi və iqtisadi əlaqələri gücləndirməyə yönəlib. Məsələ yalnız qarşılıqlı səfərlərin asanlaşdırılması ilə bitmir - bu qərarın arxasında həm geosiyasi maraqlar, həm də strateji iqtisadi hədəflər dayanır. Azərbaycanın Çinlə vizasız rejimə keçidi regionda formalaşan yeni diplomatik düzən fonunda mühüm əhəmiyyət daşıyır.

Azərbaycan-Çin münasibətlərinin uğurla inkişafı hər iki dövlət başçısının ortaq siyasi iradəsi ilə bağlıdır. Şərq-Qərb qarşılıqlı əlaqələrində bağlayıcı həlqə kimi mühüm geostrateji əhəmiyyətə malik olan Azərbaycan Respublikası Çin Xalq Respublikası ilə hərətərəfli əlaqələr qurub və bu əlaqələr daim artan dinamika üzrə inkişaf etməkdədir. Qarşılıqlı inam, hörmət, etimad, bərabərhüquqlu əməkdaşlıq və qarşılıqlı dəstək kimi ikitərəfli münasibətlər əsasında qurulan bu tərəfdaşlıq hər iki ölkənin strateji maraqlarına uyğundur. Azərbaycan və Çin arasında münasibətlər daha yüksək səviyyəyə qalxacaq. Azərbaycanla Çin dost və strateji tərəfdaş ölkələrdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev ilə Çin Xalq Respublikasının lideri Si Cinpin arasında dostluq münasibətləri qarşılıqlı əlaqələrin güclənməsində müstəsna əhəmiyyət kəsb edir. ÇXR-in Sədri Si Cinpinin dəvəti ilə Prezident İlham Əliyev 2014 və 2015-ci illərdə Çinə işgüzar səfərdə olub, 2019-cu ildə isə Pekində keçirilən İkinci "Kəmər və yol" beynəlxalq əməkdaşlıq forumunda iştirak edib. Qədim tarixə və xeyirxah ənənələrə əsaslanan Azərbaycan-Çin münasibətləri yüksələn xətlə inkişaf edir, iki ölkə arasındakı strateji tərəfdaşlıq yeni müsbət məzmunla zənginləşir.

Ölkə başçıları arasındakı fəal dialoq, şəxsi görüşlər, telefon danışıqları, məktubların mübadiləsi əsasında yaranan qarşılıqlı hörmət və etimad ikitərəfli münasibətlərin dərinləşməsində misilsiz rol oynayır. Cari il aprelin 22-24-də Prezident İlham Əliyevin Çinə səfəri ikitərəfli əlaqələrin daha da genişlənməsinə təkan verir. Bu gün Çin Azərbaycanın qarşısında duran əsas hədəflərdən biri olan Zəngəzur dəhlizinin açılmasını dəstəkləyir. Çünki bu layihə Pekin üçün də böyük əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizinin açılması Çindən Avropaya uzanan yolun açılması baxımından da çox önəmlidir. Ona görə rəsmi Pekin ən yüksək səviyyədə Zəngəzur dəhlizinin açılması təklifinə dəstəyini ifadə edir.

Çin-Azərbaycan və Azərbaycan-Çin istiqamətləri üzrə yükdaşımalar Orta Dəhlizin Şərq-Qərb-Şərq marşrutu kimi formalaşmasını sürətləndirməklə yanaşı, hər iki istiqamətdə sürətli, təhlükəsiz və səmərəli xidmətləri əlçatan edir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM-Orta Dəhliz) ilə Çin Xalq Respublikasından Azərbaycan istiqamətində 300-cü konteyner blokqatarı göndərilib. Bu dəhliz üzrə 300-cü blok-qatarın Çin-Qazaxıstan-Azərbaycan marşrutu ilə yola salınması əvvəlki illərin göstəricilərini əhəmiyyətli dərəcədə üstələyir və TBNM-in sürətli inkişafını, həmçinin beynəlxalq daşımalar üçün artan əhəmiyyətini təsdiqləyir. Çindən Azərbaycan və Avropa istiqamətində göndərilən blok-qatarların sayının 3 dəfədən çox artırılaraq il ərzində 1000-ə çatdırılması planlaşdırılır.

İxrac məhsulları daha öncə Gürcüstanın Qara dəniz limanları vasitəsilə dünya bazarına çıxırdısa, hazırda bu əməliyyatlar paralel olaraq ADY, Abşeron Logistika Mərkəzi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Azərbaycanın öz liman və imkanlarından istifadə edərək yeni logistik həllərin yaradılması ilə bu prosesi birbaşa həyata keçirəcəklər. 2024-cü il 24 noyabr tarixində Azərbaycan-Çin ticarət əlaqələri tarixində ilk dəfə olaraq ixrac yükləri Bakıdan dəmiryolu nəqliyyatı ilə Çinə yola salınıb. Bu hadisə iki ölkə arasındakı iqtisadi və nəqliyyat əlaqələrinin yeni mərhələyə qədəm qoyması ilə yanaşı, həm də Azərbaycanın beynəlxalq yükdaşımalar sahəsindəki strateji rolunu daha da möhkəmləndirdiyini nümayiş etdirir. Belə ki, Orta Dəhliz beynəlxalq nəqliyyat marşrutu ilə Çindən Azərbaycana tranzit və idxal yüklərinin göndərilməsi ilə yanaşı, Azərbaycandan Çinə ixrac yüklərinin çatdırılması bu dəhlizin səmərəliliyini daha da artırır. Orta Dəhlizin sürətlə inkişafı istər Şərq-Qərb, istərsə də Qərb-Şərq istiqamətində yükdaşımaların həcminin artırılmasına təkan verir.

Azərbaycan-Çin əlaqələrinin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, "yaşıl enerji" gündəliyinin sürətli inkişafına güclü impuls verir. Dövlət başçısı vurğulayıb ki, Çin şirkətləri Günəş elektrik stansiyalarının tikintisi layihələrinin reallaşmasında podratçı qismində fəal iştirak edirlər. İnvestor şirkətlər tərəfindən alınan Günəş panelləri Çin istehsalıdır. Çin şirkətləri hazırda Azərbaycanın "yaşıl enerji" strategiyasının reallaşdırılmasında mərhələli şəkildə ümumilikdə təxminən 2,3 QVt gücündə külək-günəş elektrik stansiyalarının inşasını, həmçinin Xəzər dənizində təxminən 2 QVt gücündə külək enerjisi layihələrinin inkişafını planlaşdırır. Son dövrlərdə, həmçinin Çin şirkətləri ilə bərpaolunan Günəş və külək enerjisi sahəsində əməkdaşlığa başlamışıq. Artıq müvafiq sazişlər imzalanıb və düşünürəm ki, bu sahə də qarşılıqlı faydalı əməkdaşlığımıza mühüm töhfə verəcək. Yəni, münasibətlərimiz çox möhkəmdir. Həm dövlət başçıları, həm də nazirlər səviyyəsində çox fəal siyasi dialoq aparılır. Çinin müxtəlif regionları ilə də çox sıx əməkdaşlıq qurulub. Artıq Çində Azərbaycanın bir neçə ticarət evi fəaliyyət göstərir. Bu istiqamətdə böyük perspektivlər görünür.

Cənubi Qafqazda sülhün təmin edilməsi, Avropanın enerji təhlükəsizliyinə töhfəmiz, Türküstan (Mərkəzi Asiya) regionundakı qardaş ölkələrin Qərbə çıxışında oynadığımız rol, Çinlə imzalanmış strateji müttəfiqlik razılaşması, Türkiyə ilə irəliləyən strateji tərəfdaşlıq və qardaşlıq münasibətləri, Türk Dövlətləri Təşkilatının inkişafına yönəlmiş siyasətimiz, eləcə də Yaxın Şərqdə Suriya, Birləşmiş Ərəb Əmirlikləri və İsraillə qurulmuş siyasi-iqtisadi əlaqələr ölkəmizin beynəlxalq arenadakı rolunu və nüfuzunu artırır. Bundan əlavə, Aralıq dənizinə çıxış imkanlarımız, Qoşulmama Hərəkatı, D-8, İslam Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası və digər regional və beynəlxalq təşkilatlarla qurulan qarşılıqlı faydalı əməkdaşlıq da Azərbaycanın dövlət maraqlarına əsaslanan xarici siyasət kursunun uğurlarını göstərir.

**Mustafa KAMAL,**
**"Respublika".**